## PREZİDENT İLHAM ƏLİYEV PAYTAXTIN BAKIXANOV QƏSƏBƏSİNDƏ GƏNCLƏR MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yeni inşa olunmuş Gənclər Mərkəzinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib. Gənclər Mərkəzi yenidən qurulan istirahət parkında yerləşir. Ümumi ərazisi 2,3 hektar olan parkda yenidənqurma işlərinə 2014-cü ilin sonunda başlanılıb. Bu istirahət mərkəzinin ərazisində idman meydançası...



Bax səh. 3

## PREZİDENT İLHAM ƏLİYEV RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib. AZƏRTAC xəbər verir ki, Rusiya xarici işlər nazirini salamlayan Prezident İlham Əliyev deyib: "Hörmətli Sergey Viktoroviç, mən Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz. Sizin səfəriniz bizim ikitərəfli əməkdaşlığın vacib məsələlərini müzakirə etmək üçün yaxşı imkandır. Özü də bu səfər Yeni il ərəfəsindədir...



Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 14 dekabr 2018-ci il, cümə / № 236 (5363). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycan 2018-ci ildə bütün sahələrdə, o cümlədən idman sahəsində böyük uğurlar əldə etmişdir




*Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu göndərib.

❖

Prezident İlham Əliyev Keniya Respublikasının Prezidenti Uhuru Kenyattaya təbrik məktubu göndərib.

❖

Prezident İlham Əliyev Razim İsa oğlu Məmmədovun Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Azərbaycan Respublikasının idman mütəxəssislərinə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Esmiralda Əhəd qızı Ələkbərovaya "Əməkdar həkim" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Neftçala rayonunun Neftçala-Xol Qaraqaşlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Aidə Şahvələd qızı Quliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Tamerlan Elmar oğlu Qarayevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında, eyni zamanda Filippin Respublikasında, Timor-Leste Demokratik Respublikasında, Sinqapur Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Tamerlan Elmar oğlu Qarayevin Azərbaycan Respublikasının Litva Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖

Prezident İlham Əliyev Xələf Alı oğlu Xələfovun Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

## YAP İDARƏ HEYƏTİNİN İCLASI KEÇİRİLİB

Dekabrın 13-də Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov iclasın gündəliyinə daxil olan məsələlər barədə məlumat verib. İclasda Yeni Azərbaycan Partiyasının Mərkəzi Nəzarət-Təftiş Komissiyası tərəfindən partiyanın rayon və şəhər...

Bax səh. 5

## AZƏRBAYCANDA BÜTÜN FUNDAMENTAL AZADLIQLAR TƏMİN EDİLİB

Öz inkişafına görə Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması yüksək səviyyədə təmin edilir, bu istiqamətdə ardıcıl olaraq addımlar atılır. Qeyd edək ki, hüquqi dövlət quruculuğu prosesinin əsas tərkib hissəsi sayılan vətəndaş hüquqlarının təmini və qorunması, fundamental azadlıqların təmin olunması əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun əsas prioritetlərindəndir. Belə ki, Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən, daha doğrusu, 1993-cü ildən indiyə kimi ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində çox böyük addımlar atılıb. Məlum olduğu kimi, 1991-ci ildə bir əsrdə ikinci dəfə öz müstəqilliyinə qovuşan Azərbaycan dövləti müstəqilliyinin ilk illərində böyük fəlakətlərlə, siyasi böhranlarla üz-üzə qaldı. Yalnız 1993-cü ilin iyununda...

Bax səh. 6



## AZƏRBAYCANDA UŞAQ VƏ GƏNCLƏRİN MƏNƏVİ-FİZİKİ İNKİŞAFI DÖVLƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR

Azərbaycanda uşaq və gənclərin fiziki, mənəvi inkişafı dövlətin xüsusi diqqət mərkəzindədir, bu istiqamətdə ardıcıl, məqsədyönlü və səmərəli tədbirlər həyata keçirilir. Məlum olduğu kimi...

Bax səh. 6

### Parisdə Ümummilli lider Heydər Əliyevə həsr olunmuş anım mərasimi keçirilib

Ölkəmizin Fransadakı səfirliyi və UNESCO yanındakı daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində...



Bax səh. 4

### Bakıda "İstedadların hazırlığı laboratoriyası" II Beynəlxalq Olimpiadanın qalibləri mükafatlandırılıb

Dekabrın 13-də Bakıda "İstedadların hazırlığı laboratoriyası" II Beynəlxalq Olimpiadanın qalibləri mükafatlandırılıb. AZƏRTAC xəbər verir ki...



Bax səh. 4

### *Etibar Nəcəfov:* Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir ölkələrdəndir

Etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi həyata keçirilmədikdə və ya düzgün aparılmadıqda cəmiyyətin inkişafının ayrı-ayrı sahələrində...



Bax səh. 5

### Bakıda "Azərbaycan gəncliyi ənənə ilə müasirliyin qovşağında" mövzusunda konfrans keçirilib

Dekabrın 13-də Bakıda "Azərbaycan gəncliyi ənənə ilə müasirliyin qovşağında" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Mənəvi Dəyərlərin...



Bax səh. 4

# Azərbaycan 2018-ci ildə bütün sahələrdə, o cümlədən idman sahəsində böyük uğurlar əldə etmişdir

## *Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*






Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib: "Əziz dostlar, 2018-ci il sona yaxınlaşır. Hər il idmançılarla görüş zamanı biz ilin idman yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə etmişdir.

> *"Dünyada 2018-ci ildə bir çox təhlükəli proseslər getmişdir və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşmişdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr, demək olar ki, 2018-ci ilin mənzərəsini əks etdirir.*
> *Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilmişdir. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir"*

Dünyada isə bildiyiniz kimi, 2018-ci ildə bir çox təhlükəli proseslər getmişdir və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşmişdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr, demək olar ki, 2018-ci ilin mənzərəsini əks etdirir.

> *"İşğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə olmuşdur. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq sıradan çıxıb"*

Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilmişdir. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir. Əlbəttə, biz dünyada gedən prosesləri izləyirik. Biz bu proseslərə biganə qala bilmərik. Çünki həm Avropada, həm bizim regionumuzda, Yaxın Şərqdə gedən proseslər narahatlıq doğurur.

> *"Azərbaycan xalqı bunu yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur"*

Bildiyiniz kimi, bu il Ermənistanda çox ciddi dəyişikliklər baş vermişdir. İyirmi il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edirdi və bu rejimin acı sonu məntiqə tam uyğundur. Onu da deməliyəm ki, bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynamışdır. Çünki bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olduq.

> *"Azərbaycan iqtisadi sahədə bütün vəzifələri uğurla icra edir. İqtisadiyyatımız artır, sosial məsələlər öz həllini tapır. 2018-ci ildə bir çox önəmli infrastruktur layihəsi uğurla icra olunmuşdur, nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlər əldə edilmişdir"*

Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib. Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni, bütün bu və başqa amillər, əlbəttə, bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salmışdır.

> *"Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır"*

İşğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə olmuşdur. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq sıradan çıxıb. Yəni, bu, bizim qonşuluğumuzda baş vermiş hadisələrdir. Əlbəttə, hesab edirəm ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə, bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqelərimiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

> *"Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü təsdiq edə bilmişik"*

Eyni zamanda, Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq sözlər deyil. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olmuşdur. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapmışdır. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapmışdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır. Mən deyəndə ki, bizim beynəlxalq nüfuzumuz artır, bunu nəzərdə tuturam. Eyni zamanda, Azərbaycan xalqı bunu yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur.

Dünən Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin növbəti görüşü olmuşdur. Bu, birinci görüş deyil. Bundan əvvəl Amerika və Rusiya baş qərargah rəislərinin Bakıda görüşü olmuşdur. NATO-Rusiya hərbi rəhbərlərinin görüşü də mütəmadi olaraq Azərbaycanda keçirilir. Bu, çox əlamətdar hadisədir. Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkə var və bu ölkələr arasında bu görüş məhz Azərbaycanda keçirilir. Avropada 50-yə yaxın ölkə var, ancaq bu görüş Azərbaycanda keçirilir. Nəyə görə? Bunun bir neçə səbəbi var. İlk növbədə, bizə olan inam. Azərbaycan çox etibarlı tərəfdaşdır, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, verdiyimiz hər bir sözə əməl edirik və sözümüzün arxasında dayanırıq. Digər tərəfdən, bizə olan hörmət. Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü təsdiq edə bilmişik. Hesab edirəm ki, bu, ikinci səbəbdir. Üçüncü səbəb ondan ibarətdir ki, həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz var. Rusiya ilə strateji tərəfdaşlıq əlaqələrimiz gündən-günə güclənir.

> *"Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib. Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik"*

NATO ilə bir çox proqramlar əsasında işləyirik, Əfqanıstana sülhməramlı əməliyyatların keçirilməsi üçün böyük dəstək oluruq, yardımlar edirik və digər amillər burada rol oynayıb. Amma bir daha Azərbaycan ictimaiyyətinin diqqətini bu məsələyə cəlb etmək istəyirəm ki, məhz Azərbaycanda bu dünya üçün çox böyük əhəmiyyət daşıyan görüş keçirilir.

> *"Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir"*

Azərbaycan iqtisadi sahədə bütün vəzifələri uğurla icra edir. İqtisadiyyatımız artır, sosial məsələlər öz həllini tapır. 2018-ci ildə bir çox önəmli infrastruktur layihəsi uğurla icra olunmuşdur, nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlər əldə edilmişdir. Bütün bunları biz etmişik, Azərbaycan xalqının böyük dəstəyi ilə buna nail olmuşuq.

Beləliklə, ilə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olmuşdur, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir.

> *"Həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz var. Rusiya ilə strateji tərəfdaşlıq əlaqələrimiz gündən-günə güclənir. NATO ilə bir çox proqramlar əsasında işləyirik, Əfqanıstana sülhməramlı əməliyyatların keçirilməsi üçün böyük dəstək oluruq, yardımlar edirik və digər amillər burada rol oynayıb"*

Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq. Eyni zamanda, onu da böyük məmnunluq hissi ilə elə qeyd etməliyəm ki, bizim idmançılarımızın mütləq əksəriyyəti həyatda da, məişətdə də gözəl nümunə göstərir, vətənpərvərlik, ləyaqət nümunəsi göstərir. Əlbəttə ki, idmançılara cəmiyyətdə olan hörmət çox yüksək səviyyədədir. Uşaqlar, yeniyetmələr bizim çempionlarımıza oxşamaq istəyirlər. Bu da təbiidir. Mən əminəm ki, bundan sonra da idmançılarımız bizi, xalqımızı sevindirəcəklər.

> *"Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir"*

Gözəl gənc nəsil yetişir. Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurları əldə edirik. Biz Rio Olimpiya Oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, beş-altı il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak ediblər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bilmişdik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq.

> *"NATO-Rusiya hərbi rəhbərlərinin görüşü də mütəmadi olaraq Azərbaycanda keçirilir. Bu, çox əlamətdar hadisədir"*

Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya Oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya Oyunlarında ləyaqətlə təmsil edək.

Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır.

> *"Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir"*

Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib. Əlbəttə ki, biz Avropa, İslam Həmrəyliyi oyunlarını xatırlaya bilərik. Bu il ölkəmizdə dünya, Avropa çempionatları keçirilmişdir. Formula 1 yarışı üç ildir Azərbaycanda, Bakıda keçirilir. Bu il və keçən il ümumi rəyə və bu məsələ ilə məşğul olan ictimai qurumların fikrinə görə, bizim yarışımız - Bakı yarışı ən gözəl yarış olmuşdur. Bu da çox gözəl hadisədir. Çünki bu da göstərir ki, bizim qəbul edilmiş hər bir qərarımız düzgün qərardır, gözəl nəticə verir.

Bilirsiniz ki, ölkəmizə turistlərin axını davam edir. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 11 ayında 6 faizdən çox artmışdır. Düzdür, əvvəlki illərə nisbətdə artım bir qədər aşağıdır, ancaq biz bilməliyik ki, baza artır. Yəni, hər il bundan sonrakı ildə bu yüksək artımı əldə etmək daha çətin olacaq. Ancaq bu istiqamətdə də çox ciddi işlər aparılır. Deyə bilərəm ki, şəhərin mərkəzində keçirilən Formula 1 yarışının turistlərin cəlb edilməsində xüsusilə çox böyük rolu, payı var.

Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Həm Beynəlxalq Olimpiya Komitəsi, həm də Avropa Olimpiya Komitəsi bizim fəaliyyətimizə çox yüksək qiymət verir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Biz bu yarışa da ciddi hazırlaşırıq. Bizdə əldə edilmiş təcrübə deməyə əsas verir ki, bu yarış yüksək səviyyədə keçiriləcək.

Gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəkdir. Bu görüşü Bakıda keçirmək o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, mövcud olan infrastruktur, idman obyektləri, gözəl Olimpiya Stadionu, gözəl otellər, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində rol oynayıb.

Yəni, biz inamla irəliyə gedirik. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çı-

davamı 3-cü səhifədə

# Azərbaycan 2018-ci ildə bütün sahələrdə, o cümlədən idman sahəsində böyük uğurlar əldə etmişdir

## *Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*








əvvəli 2-ci səhifədə

xışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq. Bu il də bu mükafatlar verilir, o cümlədən görkəmli idman nümayəndələrimizə 25 mənzil veriləcəkdir.

Mən bir daha Azərbaycan idmançılarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Əziz idmançılar, sizə yeni qələbələr, uğurlar arzulayıram. Sağ olun".

* * *

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edilib.

> *"Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Həm Beynəlxalq Olimpiya Komitəsi, həm də Avropa Olimpiya Komitəsi bizim fəaliyyətimizə çox yüksək qiymət verir"*

> *"Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib"*

Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə İsmayıl Həşimova, Tanziliya Deminaya, Yaqub Məmmədova, Vahid Məmmədova, Şamil Əlimzanova, İbrahim İbrahimova və Svetlana İşməmmədovaya "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının döş nişanlarını və vəsiqələrini təqdim edib.

Dövlətimizin başçısı Azərbaycanda idman səhiyyəsinin inkişafında xidmətlərinə görə Esmiralda Ələkbərovaya "Əməkdar həkim" fəxri adının döş nişanını və vəsiqəsini təqdim edib.

Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elşad Nərimanova, Elxan Əliyevə və Ağasəlim Mircavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olunub.

Sonra Prezident İlham Əliyev Elçin Zeynalova "Olimpiya" ordenini təqdim edib.

Tədbirdə, həmçinin Oktay Mehtiyev, Azər Aslanov, Vüqar Qasımov, Mustafa Əhmədov, Azad Əsgərov və Ceyhun Əşrəfov Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanları ilə təltif olunublar.

Daha sonra Prezident İlham Əliyev 2018-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim edib.

> *"Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür"*

* * *

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professoru Elşad Nərimanov Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində akademiyada uğurlu islahatların aparıldığını bildirib. Qeyd edib ki, həyata keçirilən islahatlar çərçivəsində Azərbaycan Gimnastika Federasiyası Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman zalını təmir etdirib və bu zal zəruri gimnastika avadanlığı və alətləri ilə təchiz olunub. Akademiyanın bütün beynəlxalq tədbirlərdə iştirakına, icra olunan layihələrə verdiyi dəstəyə görə birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya minnətdarlıq edən Elşad Nərimanov ona təqdim olunan mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

* * *

Əməkdar bədən tərbiyəsi və idman xadimi Elçin Zeynalov Ulu öndər Heydər Əliyevi dərin ehtiramla xatırlayıb, Onunla görüşlərini yada salıb. Ümummilli liderin idman ictimaiyyətinə hər zaman qayğı ilə yanaşdığını, bunun Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurla çıxış etmələrinə stimul verdiyini bildirib.

> *"Gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəkdir. Bu görüşü Bakıda keçirmək o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, mövcud olan infrastruktur, idman obyektləri, gözəl Olimpiya Stadionu, gözəl otellər, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində rol oynayıb"*

Elçin Zeynalov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya ölkədə idmanın inkişafına və idmançılara göstərdikləri diqqət və qayğıya görə təşəkkürlərini çatdırıb.

* * *

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim edib.

# Prezident İlham Əliyev paytaxtın Bakıxanov qəsəbəsində Gənclər Mərkəzinin açılışında iştirak edib

Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yeni inşa olunmuş Gənclər Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Gənclər Mərkəzi yenidən qurulan istirahət parkında yerləşir. Ümumi ərazisi 2,3 hektar olan parkda yenidənqurma işlərinə 2014-cü ilin sonunda başlanılıb. Bu istirahət mərkəzinin ərazisində idman meydançası və açıq havada müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün səhnə quraşdırılıb. Parkda inşa olunan Gənclər Mərkəzinin üçmərtəbəli binasının qarşısında Ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılıb.





Dövlətimizin başçısı Ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub.







Sonra Prezident İlham Əliyev Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, Mərkəzin ümumi sahəsi 5800 kvadratmetrdir. Mərkəzin yüksək zövqlə inşa edilən binasının interyeri müasirliyi ilə seçilir. Burada 300 yerlik böyük konfrans zalı yaradılıb. Zalda rayonun ictimai-siyasi, mədəni həyatı ilə bağlı əlamətdar tədbirlərin keçirilməsi üçün hər cür şərait mövcuddur.

Gənclər Mərkəzində Heydər Əliyev Muzeyi fəaliyyət göstərəcək.

Azərbaycan tarixində müstəsna xidmətləri olan Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə silsilə tədbirlər keçirilir. Gənclər Mərkəzində Heydər Əliyev Muzeyinin yaradılması Ulu öndərin zəngin və çoxşaxəli irsinin gənclər arasında təbliğində və öyrənilməsində mühüm rol oynayır. Muzeydə Ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar var. Burada, həmçinin Ulu öndərin çoxşaxəli siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolar və sənədlər nümayiş olunur.

Gənclər Mərkəzində virtual atıcılıq otağı, foto, rəsm, dizayn və poliqrafiya studiyaları, fortepiano, rəqs və intellektual oyun zalları yaradılıb. Burada, həmçinin kiçik konfrans zalı, gənclik kafesi, kompüter, xarici dil kursları, linqafon kabineti, şahmat otağı, virtual sinif var. Mərkəzdə 90 yerlik kinozal və elektron kitabxana da gənclərin ixtiyarına veriləcək. Bundan başqa, burada nikah zalları da yaradılıb.

Bu cür müasir Gənclər Mərkəzinin inşası bir daha sübut edir ki, ölkəmizdə gənclər siyasətinin reallaşdırılması istiqamətində görülən çoxşaxəli tədbirlər ardıcıl xarakter daşıyır. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasətinin davam etdirilməsi Prezident İlham Əliyevin fəaliyyətində mühüm yerlərdən birini tutur. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir.

Sabunçu rayonunda Gənclər Mərkəzinin inşa edilməsi bu gün ölkəmizdə Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, onların fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramların ardıcıl xarakter aldığını göstərir.

# YAP İdarə Heyətinin iclası keçirilib

Dekabrın 13-də Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov iclasın gündəliyinə daxil olan məsələlər barədə məlumat verib.

İclasda Yeni Azərbaycan Partiyasının Mərkəzi Nəzarət-Təftiş Komissiyası tərəfindən partiyanın rayon və şəhər təşkilatlarında aparılmış yoxlamaların nəticələri barədə məruzə dinlənilib. İdarə Heyəti MNTK tərəfindən yoxlama aparılmış rayon və şəhər təşkilatlarının fəaliyyəti və həyata keçirdikləri tədbirlərin qənaətbəxş hesab edilməsi barədə qərar qəbul edib.

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclasında həmçinin, YAP Gənclər Birliyinin partiyanın rayon və şəhər təşkilatlarında hesabat seçki yığıncaqlarının keçirilməsi barədə qərar qəbul edilib.

# Gennadi Şmal: Heydər Əliyev bilikli, istedadlı insan idi, ən başlıcası, Onun xarakteri vardı

***Rusiya Neft-Qaz Sənayeçiləri İttifaqının prezidenti Gennadi Şmal Qərbi Sibirdə neft-qaz kompleksini yaradanlardan biri olub. O, bir sıra məsul vəzifələrdə işləyib, o cümlədən Tümen Vilayət Komsomol Komitəsinin birinci katibi, Sov.İKP Tümen Vilayət Komitəsinin birinci katibi, SSRİ neft və qaz sənayesi müəssisələri tikintisi nazirinin birinci müavini, "Rosneftegazstroy"un Direktorlar Şurasının sədri olub.***

***Gennadi Şmal AZƏRTAC-ın müxbiri ilə söhbətində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevlə, əfsanəvi geoloq Fərman Salmanovla və keçmiş SSRİ qaz sənayesi naziri Sabit Orucovla birgə işlədiyi illərlə bağlı xatirələrini bölüşüb.***



### SSRİ-DƏ İDARƏÇİLİK BAXIMINDAN HEYDƏR ƏLİYEVLƏ MÜQAYİSƏ EDİLƏ BİLƏCƏK ADAM YOX İDİ

SSRİ-də idarəçilik baxımından Heydər Əliyevlə müqayisə edilə biləcək adam yox idi. Onun keçirdiyi müşavirələrdə mən də dəfələrlə olmuşam. O vaxt hökumətin tərkibində operativ məsələlər üzrə komissiya vardı. Əslində, Heydər Əliyevin rəhbərlik etdiyi bu komissiya bütün ölkə iqtisadiyyatını idarə edirdi. Hökumətin başçısı siyasi məsələlərlə məşğul idi, cari məsələlər isə Heydər Əliyevin üzərinə düşürdü. O vaxt cari məsələlər indikindən çox idi, çünki ölkə böyük idi. Lakin Heydər Əliyev bütün məsələlərin öhdəsindən bacarıqla gəlirdi. O, əvvələn, bilikli, ikincisi - istedadlı insan idi və ən başlıcası, Onun xarakteri vardı. Bu amillər Heydər Əliyev səviyyəli insan üçün çox vacib idi. Onu həmişə diqqətlə dinləyir, eşidir və dediklərinə əməl edirdilər. O mürəkkəb dövrdə Heydər Əliyev Sovet İttifaqı üçün çox iş görüb. Bizim fikrimizcə, Onun vəzifədən azad olunması çox böyük ədalətsizlik idi. Heydər Əliyev Sovet İttifaqı tarixində böyük iz qoyub.

### FƏRMAN SALMANOV ÖMRÜNÜN SONUNA QƏDƏR AZƏRBAYCAN MENTALİTETİNİ QORUYUB SAXLADI

Fərman Salmanov institutu bitirəndən, demək olar ki, dərhal sonra Rusiyaya gəlib və ömrü boyu Rusiyada yaşayıb. Buna baxmayaraq, o, Azərbaycan mentalitetini qoruyub saxladı. Bu, hər şeydə ifadə olunurdu - insanlara, dostlarına münasibətində də, dünya görüşünün genişliyində də. Bir epizod xatirimdədir. Komsomolsk-Amur şəhərinin 35 illiyi qeyd edilirdi. Bu münasibətlə böyük bir toplantı keçirildi, Uzaq Şərqi tikənlər ölkənin bütün guşələrindən həmin toplantıya gəldi. Tümen nümayəndə heyətinə mən, Fərman Salmanov, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, geoloq İvan Nesterov və daha bir neçə nəfər daxil idi. Bizim nümayəndə heyəti adından çıxış etmək üçün Fərmanı seçdik. Hər halda o, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı idi... Amma ömrünün sonuna qədər rus dilində danışanda Azərbaycan ləhcəsi hiss olunurdu. Mən həmin tədbirin Rəyasət heyətində əyləşmişdim. Zaldan bizə belə bir qısa məktub göndərdilər: **"Xahiş edirik, gələn dəfə Tümen nümayəndəsi çıxış edəndə tərcüməçi dəvət edin".**

Fərman idmanı çox sevirdi, insanlara çox qayğı ilə yanaşırdı. Hətta tayqada ekspedisiyada olarkən orada istixana düzəltmişdi, pomidor, xiyar yetişdirirdi. Ümumiyyətlə, o, əsl sovet tipli yaxşı rəhbər idi. Təəssüf ki, Heydər Əliyev, Fərman Salmanov, Sabit Orucov kimi insanlar azdır. Bu cür insanlarla həyat daha maraqlı olar.

Mən Tümen Vilayət Komsomol Komitəsinin birinci katibi vəzifəsində işləyən dövrdə İngiltərədə futbol üzrə dünya çempionatı keçirilirdi. Bizə də bir putyovka vermişdilər. Biz həmin putyovkanı Fərman Salmanova verdik. Fərman Salmanov çempionatda olduğu dövrdə ona Sosialist Əməyi Qəhrəmanı adı verildi. SSRİ-nin Böyük Britaniyadakı səfirliyində onu təbrik etdilər. Onun ömrünün sonuna qədər biz çox yaxın münasibətdə olmuşuq. Hətta onun 70 illiyinə həsr edilmiş təntənəli gecəni mən idarə edirdim.

### YATAQLAR BARƏDƏ XÜSUSİ DUYUMU VARDI

Fərman Salmanov Surqut üçün çox iş görüb. O vaxt biz fəal gənclər idik. Yataqlar barədə xüsusi duyumu vardı. İnstitutu bitirəndən sonra Kuzbasda işləyirdi. O vaxt Kuzbas yetərincə abadlaşdırılmışdı. Oradan naməlum Surquta getməyə hər kəsin hünəri çatmazdı. Amma Fərman Salmanov belə bir qərar qəbul etdi və uduzmadı, əksinə, qazandı. Qərbi Sibirdə ilk neft Tümendə, Uray şəhərindəki "Şaim" yatağında tapıldı. Hamı hesab edirdi ki, əsas qüvvə və vəsaitləri oraya yönəltmək lazımdır. Amma Fərman bu fikirdə idi ki, böyük neft Ob çayı sahillərində tapılacaq. Yalnız "Ust-Balık" yatağı, daha sonra "Megion" yatağı" kəşf ediləndən sonra məlum oldu ki, o haqlı imiş. Burada yataqların həcmi tamam başqa idi. "Şaim" yatağında ehtiyatların üç milyard tona bərabər olması güman edilir. Belə yataqlar çox idi. Fərman yüzə yaxın yataq kəşf edib. Urenqoy, YANQO, Bovanenkov yataqları, Yamal yarımadasındakı ən iri yatağın ehtiyatları hazırda istifadəyə verilib və qaz hasilatını lazımi səviyyədə saxlamaq üçün əsas mənbə bu yataqlardır.

### SURQUTDA FƏRMAN SALMANOVU ÇOX SEVİR, ONA ÇOX HÖRMƏT EDİRLƏR

Surqutda "Fərman Salmanovun evi" adlı memorial kompleks var. Buradakı yataqları kəşf etmiş geoloqların xatirəsinə ucaldılmış bu kompleks 2007-ci ildə geoloq-kəşfiyyatçıların ilk desantının Surqut torpağına enməsinin 50 illik bayramı şərəfinə ucaldılmış bu kompleksin mərkəzi Fərman Qurban oğlunun evidir. Sibir neftini birinci olaraq kəşf etmiş Fərman Salmanovun o vaxt yaşadığı ev öz tarixi məkanında qorunub saxlanıb. 1957-1961-ci illərdə, yəni Yuqor torpağında neft fontanlarından əvvəlki dövrdə Fərman Salmanov bu evdə yaşayıb.

Xantı-Mansiysk və Salexard şəhərlərində Fərman Salmanova abidələr ucaldılıb. Surqutda onun adını daşıyan küçə və gimnaziya var. Bundan əlavə, bir neft yatağına, bir teploxoda və "YUTeyr" hava xətlərinin bir təyyarəsinə Fərman Salmanovun adı verilib. Təsadüfi deyil ki, iki aeroport onun adını daşımağa iddia edirdi.

### SABİT ORUCOV ÇOX YÜKSƏK SƏVİYYƏLİ PEŞƏKAR İDİ

Sabit Orucovla yaxından tanış idim. Qəribə adam idi. Bir neçə il bundan əvvəl biz onun 100 illiyi münasibətilə böyük konfrans keçirdik, ona həsr olunmuş kitab nəşr etdik. O, neftçi, SSRİ neft sənayesi nazirinin birinci müavini idi. Bu nazirlik iki hissəyə bölünəndən sonra Sabit Orucov qaz sənayesi naziri oldu. O, SSRİ qaz sənayesi üçün çox iş görüb. Onun nazir olduğu dövrdə ölkədə qaz sənayesi intensiv inkişaf edirdi, hasilatın həcmi təqribən 250 milyard kubmetr artmışdı. Sabit Atayeviç həqiqətən unikal insan idi. O, Tümenə, bizim yanımıza gələndə ezamiyyəti azı bir həftə davam edirdi. Bu müddətdə o, Urenqoyda, Nadımda olan yataqlara hökmən baş çəkirdi. Özü də sadəcə səfər etmirdi. Hökmən müşavirələr keçirir, bütün çıxışları diqqətlə dinləyirdi. Sonra hər yüz kilometrdən bir yerləşən kompressor stansiyalarına gedir, bütün məsələlərin təfərrüatına varırdı. Neft sənayesi sahəsində böyük təcrübəsi vardı. Özü də qeyri-ordinar, çox savadlı adam idi. Fərman Salmanov kimi, o da insanları yaxşı duyurdu, bu və ya digər məqamda lazımi qərarlar qəbul edirdi. Həm idarəçi, həm də mühəndis, texnoloq kimi çox yüksək səviyyəli peşəkar idi. Təəssüf ki, bu gün belə insanlar azdır.

Dünya Heydər Əliyev, Fərman Salmanov, Sabit Orucov kimi insanların üzərində dayanır.

# Gənclər Fondu sosial müdafiəyə xüsusi ehtiyacı olan 237 tələbənin təhsil xərclərini ödəyəcək

Azərbaycan Respublikası Gənclər Fondu təhsil xərclərinin maliyyələşdirilməsi üzrə müsabiqənin nəticələrini dekabrın 13-də elan edib.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar keçirilən tədbirdə müsabiqə barədə məlumat verən Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov deyib: **"Müsabiqə çərçivəsində Gənclər Fonduna ümumilikdə 724 müraciət qəbul olunub. Bu müraciətlərin ilkin texniki seleksiyası zamanı 678 müraciətin Fondun müəyyən etdiyi texniki qaydalara uyğun olduğu aşkarlanıb. Bundan sonra həmin müraciətlər üzrə qərarvermə proseduru başlayıb. Fondun qəbul etdiyi qərar əsasında 237 gəncin təhsil xərclərinin ödənilməsi qərara alınıb. Ölkəmizin 58 şəhər və rayonundan olan bu gənclər 34 ali dövlət təhsil müəssisəsinin tələbələridir".**

Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli Fərmanına əsasən, Gənclər Fondunun Nizamnaməsinin 3.1.9-cu yarımbəndinə uyğun olaraq, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər qrupuna aid istedadlı gənclərin təhsil xərclərinin maliyyələşdirilməsi məqsədilə noyabrın 2-dən 18-dək ərizələrin qəbulu həyata keçirilib. Sənədlərin qəbulu Fondun rəsmi internet səhifəsi vasitəsilə aparılıb. Müsabiqəyə müraciət etmək istəyən tələbələr Fondun saytından qeydiyyatdan keçib, kod və şifrə əldə etdikdən sonra səhifənin elektron xidmətlər bölməsində yerləşdirilmiş ərizə formasını doldurublar. Müraciətlərin dəyərləndirilməsi zamanı Azərbaycanın Milli qəhrəmanlarının övladlarına, I, II və III qrup əlil gənclərə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşların övladlarına, valideynlərini itirənlərə, valideyn himayəsindən məhrum olanlara və ya internat məzunlarına, I qrup əlil valideyni olan gənclərə, hər iki valideyni əlil olan gənclərə və aztəminatlı ailədən olan gənclərə üstünlük verilib. Bundan başqa, tələbələrin dərslərə davamiyyəti və təhsil göstəriciləri də əsas götürülüb.

Qeyd edək ki, 237 tələbənin siyahısı Gənclər Fondunun saytında yerləşdirilib.

# Millət vəkili: ABŞ-ın Ermənistana səfər edən vətəndaşlarına xəbərdarlığı bu ölkədə gərginliyin həddən artıq yüksək olması ilə bağlıdır

Birləşmiş Ştatların Yerevandakı səfirliyi tərəfindən Ermənistana səfər edən ABŞ vətəndaşlarına təhlükəsizlik riskləri ilə bağlı xəbərdarlıq Ermənistandakı sosial-siyasi gərginliyin həddən artıq yüksək olması ilə bağlıdır. Bunu Trend-ə Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.



H.Babaoğlu bildirib ki, dekabrın 9-da keçirilən növbədənkənar parlament seçkilərinin faktiki olaraq baş tutmaması, sadəcə saxtalaşdırma vasitəsilə yeni parlamentin əvvəlcədən hazırlanmış siyahı üzrə elan edilməsi, seçicilərin səssiz etiraz üsulu ilə seçkini boykot etməsi onsuz da çoxsaylı problemi olan cəmiyyəti sosial partlayış həddinə yaxınlaşdırıb: **"Belə vəziyyət ciddi qarşıdurma və daxili terrorla daha da şiddətlənə bilər ki, bunun üçün də Ermənistanda ciddi əsaslar və təcrübə var. İşğalçı ölkədə parlamentin güllələbaran edilməsindən başlamış ən müxtəlif terror növlərinə son illərdə rast gəlinib. Çünki bu, cəmiyyəttin səciyyəvi keyfiyyətlərindən biri - terrora meyilli olması, yaxud problemi radikal zorakı metodlarla həll etməyə istəkli olması ilə bağlıdır. Belə olan halda, əlbəttə, ciddi ölkələr öz vətəndaşlarınıı xəbərdar etməlidirlər".**

Deputatın sözlərinə görə, ABŞ-ın ardınca bir sıra başqa sivil ölkələrin də bənzər qərarlar qəbul edəcəyini ehtimal etmək olar: **"Ancaq, əlbəttə, məsələnin sosial tərəfləri ilə bərabər siyasi tərəfləri də var. Heç vaxt siyasi müvazinəti qoruya bilməyən və ciddi siyasi dairələrdə "küçə siyasətçisi" imicini qazanan Nikol Paşinyan seçkidən dərhal sonra yenə növbəti anlaşılmaz bəyanatlar verməyə başladı. Onlardan biri də NATO-ya üzvlüyün Ermənistan üçün prioritet olmaması ilə bağlı idi. Həm seçkinin saxtalaşdırılması, həm də birdənbirə Qərb əleyhinə belə bir fikrin səsləndirilməsi kimi məsələlər, görünür, ABŞ-ın belə bir xəbərdarlıqetmə qərarını siyasi zərurətə çevirib. Ona görə biz bundan sonra da Ermənistanda daha ciddi qarşıdurmaları müşahidə edə biləcəyik - bu, həm daxili, həm də dövlətlərarası müstəvidə mümkün ola bilər".**

# Etibar Nəcəfov: Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir ölkələrdəndir




Etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi həyata keçirilmədikdə və ya düzgün aparılmadıqda cəmiyyətin inkişafının ayrı-ayrı sahələrində ciddi problemlər, hətta münaqişələr yaranır. Bu səbəbdən etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi çoxmədəniyyətli dövlət üçün böyük praktiki əhəmiyyət kəsb edir. Müasir dövrdə multikulturalizm siyasəti bir sıra Qərb ölkələrində iflasa uğrayarkən Azərbaycan Respublikası bu siyasət vasitəsilə cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi sahəsində böyük nailiyyətlər qazanıb. Buna misal kimi, ölkəmizdə etnik, dini və irqi zəmində heç bir qarşıdurmanın, münaqişənin olmamasını göstərmək olar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər dekabrın 13-də Quba şəhərində "Müasir dövrdə Azərbaycan Respublikasında etno-siyasi və dini durum" mövzusunda keçirilən zona müşavirəsində səsləndirilib.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon icra hakimiyyəti başçılarının müavinləri - dini işlər üzrə komissiya sədrləri, dini qurumlarla işin təşkilatçıları, hüquq-mühafizə orqanlarının, Mədəniyyət, Təhsil, Gənclər və İdman nazirliklərinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerli qurumlarının rəhbərləri, bələdiyyə sədrləri, ziyalılar və din xadimləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin Quba şəhərinin mərkəzi meydanındakı abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Heydər Əliyev Mərkəzində keçirilən zona müşavirəsində Quba rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev çıxış edərək tədbirin əhəmiyyətindən danışıb, rayondakı dini durum haqqında məlumat verib.

Bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd dövlətimizin multikulturalizm və dövlət-din münasibətləri sahəsində əldə etdiyi nailiyyətləri bölgə ictimaiyyətinin diqqətinə çatdırmaq, həmçinin bölgədə etno-siyasi və dini durumla bağlı mövcud vəziyyəti yerində öyrənmək, sözügedən sahədə dövlət qurumları arasında koordinasiyanı gücləndirmək, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin, eyni zamanda, Prezident Administrasiyasında təsdiq edilmiş fəaliyyət planlarının icra vəziyyəti ilə tanış olmaqdır.



Müşavirədə məruzə ilə çıxış edən Azərbaycan Respublikası Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, Azərbaycanda etnik-mədəni müxtəlifliklər əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi multikulturalizm siyasəti vasitəsilə tənzimlənir. Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir ölkələrdəndir. Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi assimilyasiya siyasətindən fərqli olaraq, milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla, bu dəyərləri qorumağa çalışır. Həmçinin izolyasiya siyasətindən fərqli olaraq, milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır. Eləcə də milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiyası üçün əlverişli imkan təklif edir.

Diqqətə çatdırılıb ki, tarixən Azərbaycanda məskunlaşmış milli azlıqlar etnik, dini və mədəni mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə burada əhalinin çoxluğunu təşkil edən Azərbaycan türkləri tərəfindən təqib olunmayıb və birgə əmin-amanlıq şəraitində yaşayıblar. Azərbaycanda multikultural mühit ölkənin müstəqil olduğu zamanda daha da güclənib.

Etibar Nəcəfov məruzəsində qeyd edib ki, ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunmasıdır. Bu istiqamətdə ölkəmiz böyük uğurlara imza atıb. Belə uğurlardan biri kimi son dövrdə siyasi leksikona daxil olmuş "Bakı prosesi"ni qeyd etmək olar. Bu il on illiyini qeyd etdiyimiz və qlobal hərəkata çevrilmiş "Bakı prosesi" müxtəlif mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan təşəbbüsdür. Prezident İlham Əliyev tərəfindən ilk dəfə irəli sürülən və Azərbaycan multikulturalizminin beynəlxalq münasibətlər sistemində təzahürü olan bu təşəbbüs çərçivəsində ölkəmizdə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına xidmət edən bir sıra nüfuzlu beynəlxalq tədbirlər keçirilib. "Bakı prosesi" çərçivəsində paytaxtımızda Dünya mədəniyyətlərarası dialoq forumları, Bakı Beynəlxalq Humanitar forumları, Dünya Dini Liderlərinin Sammiti, eləcə də Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu təşkil olunub.

**"Unutmaq olmaz ki, din ideoloji sahədə ən həssas və incə mahiyyətə sahibdir. Ondan siyasi, qrup, şəxsi maraqlar naminə istifadə edən, yaxud din pərdəsi altında müxtəlif destruktiv fəaliyyətlərə yönələn və bunun nəticəsində digər vətəndaşların hüquqlarını pozan, bir sözlə, insanların saf duyğularından istifadə edib öz məkrli məqsədlərini həyata keçirmək istəyənlər də az deyil",** - deyə Etibar Nəcəfov bildirib.

Müşavirədə digər çıxış edənlər qeyd ediblər ki, Azərbaycanda dövlət-din münasibətləri möhkəm təməllər üzərində qurulub. Ölkəmizdə dindarlara daim dövlət tərəfindən diqqət və qayğı göstərilir. Görülən bu işləri dindarlar yüksək qiymətləndirir, Azərbaycan hökumətinin həyata keçirdiyi tolerant və multikultural siyasəti dəstəkləyirlər.

Vurğulanıb ki, Azərbaycan Respublikasında dini etiqad azadlığı möhkəm hüquqi-normativ əsaslara malikdir. Eyni zamanda, dövlətimiz dini etiqad azadlığının təmin olunması sahəsində böyük işlər görür. Lakin radikal ekstremist qruplaşmalar öz çirkin əməlləri ilə buna kölgə salmağa çalışır, həmçinin ölkədəki ictimai-siyasi sabitliyi pozmağa cəhdlər edirlər. Belə cəhdlərin qarşısı həmişə qətiyyətlə alınıb və gələcəkdə də alınacaqdır.

Müşavirədə dövlət-din münasibətləri istiqamətində görülən işlərdən danışılıb, Azərbaycanda mövcud olan etno-siyasi və dini durumun dünyaya nümunə olduğu bildirilib.

# Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib

*Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması istiqamətində görülən işlər davamlı xarakter daşıyır*



Öz inkişafına görə Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması yüksək səviyyədə təmin edilir, bu istiqamətdə ardıcıl olaraq addımlar atılır. Qeyd edək ki, hüquqi dövlət quruculuğu prosesinin əsas tərkib hissəsi sayılan vətəndaş hüquqlarının təmini və qorunması, fundamental azadlıqların təmin olunması əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun əsas prioritetlərindəndir. Belə ki, Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən, daha doğrusu, 1993-cü ildən indiyə kimi ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində çox böyük addımlar atılıb.

Məlum olduğu kimi, 1991-ci ildə bir əsrdə ikinci dəfə öz müstəqilliyinə qovuşan Azərbaycan dövləti müstəqilliyinin ilk illərində böyük fəlakətlərlə, siyasi böhranlarla üz-üzə qaldı. Yalnız 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya gələn Ulu öndər Heydər Əliyev Ali Sovetin Sədri kimi fəaliyyətə başladığı ilk aylarda atdığı müdrik addımlar sayəsində qısa müddət ərzində vətəndaş müharibəsi və ölkəmizin parçalanmaq təhlükəsinin qarşısını aldı, hakimiyyəti qeyri-qanuni ələ keçirməyə cəhd göstərən cinayətkar qüvvələr xalqın dəstəyi ilə zərərsizləşdirildi. Beləliklə, Ümummilli liderimizin müdrikliyi, dünyada gedən proseslərə dərindən bələd olması, baş verən hadisələrin səbəblərinin təhlili zamanı əvəzolunmaz məharət və bacarığı, hadisələrin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək səriştəsi öz bəhrəsini verdi. Qısa zamanda ölkəmizdə vəziyyət sabitləşdi və hüquqi dövlət quruculuğu prosesinə start verildi.

Bu məqamda vurğulamaq yerinə düşər ki, Azərbaycanın demokratik inkişafının mühüm elementi rolunda çıxış edən ölkə Konstitusiyası hüquqi dövlət quruculuğu prosesinin əsasını təşkil edir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası öz demokratikliyi, həmçinin insan hüquq və azadlıqlarının təmini baxımından mükəmməlliyi ilə seçilir. Belə ki, ölkəmizin əsas qanununun müddəalarının təxminən yarıdan çoxu insan hüquq və azadlıqlarını əhatə edir. Eləcə də bu gün Milli Məclisdə İnsan hüquqları komitəsinin, həmçinin ölkəmizdə Ombudsman Aparatının fəaliyyəti respublikamızda demokratik prinsiplərə hörmətin göstəricisidir.

İnsan hüquqlarından danışarkən onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan tolerantlıq nümunəsi olaraq dünyanın aparıcı ölkələri üçün də uğurlu model təqdim edir. Ölkəmizdə dini, irqi, etnik baxımdan ayrı-seçkilik yoxdur və Konstitusiya ilə bütün ölkə vətəndaşları qanun qarşısında eyni məsuliyyəti daşıyırlar. Digər tərəfdən, ölkəmizdə söz və mətbuat azadlığının mövcud olması Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunur. Bir sözlə, ölkəmizdə əsas fundamental insan hüquq və azadlıqları qanunvericiliyin tələbləri ilə qorunur, inkişaf etdirilir. Oktyabrın 25-də paytaxtımızda keçirilmiş VI Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimindəki çıxışında bu məqama toxunan Prezident İlham Əliyev bildirib: **"Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir. Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir".**

Ölkəmiz, eyni zamanda, insan hüquqlarının qorunması prinsiplərini özündə ehtiva edən beynəlxalq müqavilələri və konvensiyaları dəstəkləyib. BMT Baş Məclisinin 1948-ci il qətnaməsi ilə qəbul olunan "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməni dəstəkləyən Azərbaycan bu istiqamətdə götürdüyü bütün öhdəlikləri yerinə yetirib. O cümlədən Azərbaycan bu gün 50-yə yaxın beynəlxalq konvensiyanı dəstəkləyərək nəinki öz sərhədləri daxilində, bütün dünyada insan hüquqlarının qorunmasının keşiyində dayanır.

Yeri gəlmişkən, bu il dekabrın 7-də Bakıda Azərbaycan Respublikası Ombudsmanının təşkilatçılığı ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 70 illiyinə həsr olunan "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir" mövzusunda beynəlxalq konfransın keçirilməsi də ölkəmizin bu sahəyə verdiyi önəmin növbəti bariz nümunəsidir. Tədbirdə qeyd edilib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 64 əfv sərəncamı imzalanıb, 11 amnistiya aktı qəbul edilib və bunlar on minlərlə insana şamil olunub. Bildirilib ki, dövlətimizin ali məqsədi insan hüquqlarının müdafiəsidir və Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs ölkədə dayanıqlı inkişafa, insanların həyat səviyyəsinin yüksəlməsinə, hüquq bərabərliyinin təmininə imkan yaradıb. Tədbirdə çıxış edən Milli Məclisin sədr müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradova qeyd edib ki, bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsini təmin edən çox mükəmməl qanunvericilik bazası var. Azərbaycanın qanunvericilik bazası insanların hüquqlarının bərabər şəkildə təmin edilməsini gerçəkləşdirən mühit formalaşdırır. Komitə sədri vurğulayıb ki, bugünkü nailiyyətlər bu uğurların əldə edilməsinə töhfə verən Azərbaycan vətəndaşlarının iştirakı ilə əldə olunub. Xalqın mütləq dəstəyi olmadan hər hansı ideyanı gerçəkləşdirmək qeyri-mümkündür. Bu gün insan hüquqlarının təminindən, ədalətdən danışılır: **"Müstəqil dövlət olmasa və insan hüquqlarının təmini üçün lazım olan şərait yaradılmasa, bütün bunları etmək olmaz. Azərbaycan ötən illərdə çox böyük uğurlara imza atıb. Bu gün bizim hər birimiz belə bir ölkənin vətəndaşı olduğumuz üçün qürur duyuruq, eyni zamanda, bunun məsuliyyətini daşımalıyıq. Azərbaycanın əsas qanunu olan Konstitusiyada hüquq bərabərliyi və onun dövlət tərəfindən təmin edilməsi öz təsbitini tapıb. Dünyada gündəlik hüquqpozmalar, məişət zorakılığı, mənsubiyyətə görə fərqqoyma kimi mənfi hallarla üzləşdiyimiz bir dövrdə beynəlxalq təşkilatlar koordinasiya olunmuş şəkildə fəaliyyət göstərməlidirlər. Bunun üçün də geniş maarifləndirmə işləri aparılmalıdır".**

Qeyd etmək lazımdır ki, Azərbaycan 26 il bundan əvvəl BMT-nin Uşaq Hüquqları Konvensiyasına da qoşulub. Azərbaycan hökuməti konvensiyadan irəli gələrək uşaqların ibtidai təhsil almaları, ölüm hallarının azaldılması və erkən nikahların qarşısının alınması istiqamətində işlər görüb. Azərbaycan hökuməti və parlamenti birgə fəaliyyətlə həssas ailələrdəki uşaqlara xüsusi diqqət yetirir.

Ən əsası, Azərbaycanda qız uşaqlarının təhsilə cəlb edilməsi istiqamətində görülən işlər yüksək səviyyədədir. Azərbaycan hökuməti qadınların və uşaqların müdafiəsi sahəsində gələcəkdə görüləcək işləri və hədəfləri müəyyən edib. Həmin tədbirlərin ən vacibi ailə institutunun gücləndirilməsi, reproduktiv sağlamlıq, qadınların və uşaqların zorakılığına qarşı tədbirlərin görülməsidir. Nəzərə alınmalıdır ki, məişət zorakılığı problemi hələ də öz aktuallığını qoruyur və ölkəmizdə zorakılıq qurbanlarının hüquqlarının müdafiəsi üçün tədbirlər görülür. Ötən müddət ərzində qadınların hüquqlarının müdafiəsi sahəsində iki mühüm qanun - "Gender siyasəti haqqında" və "Məişət zorakılığı haqqında" qanunlar qəbul edilib.

Göründüyü kimi, Prezident İlham Əliyevin yürütdüyü siyasi kurs Azərbaycanda hüquqi dövlətin möhkəmləndirilməsi, inkişaf etdirilməsi, o cümlədən də vətəndaş cəmiyyətinin praktiki olaraq möhkəmlənməsi və inkişafı üçün zəmin yaradıb. Daha doğrusu, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunmasına yönəlmiş çoxşaxəli humanizm siyasəti Prezident İlham Əliyev tərəfindən müasir dövrün qanunauyğunluqlarına, reallıqlarına və tələblərinə müvafiq surətdə davam etdirilməkdədir. 2007-ci ildə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyasının qəbul olunması, 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması bu qəbildən olan addımlardandır. Məlumat üçün bildirək ki, Fondun yaradılması bilavasitə vətəndaş cəmiyyəti institutlarının inkişafına çox böyük təkan verdi. Bu qurum vasitəsi ilə dövlət tərəfindən vətəndaş cəmiyyəti institutlarına hər il maliyyə vəsaitləri ayrılır.

Məhz bu cür ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, 18 iyun Azərbaycanda İnsan Hüquqları Günü elan edilib. Nəticə etibarilə, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təmin və müdafiə olunması demokratikləşmə prosesinin də operativ və effektiv səciyyə almasını şərtləndirir.

Beləliklə, müstəqilliyimizdən ötən 27 ildə Azərbaycanın keçdiyi inkişaf yolunun təhlili bir daha göstərir ki, sosial-iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoyan ölkəmizdə, insan hüquq və azadlıqlarının qorunması istiqamətində görülən işlər davamlı xarakter daşıyır.

**Pərviz SADAYOĞLU**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

# Azərbaycanda uşaq və gənclərin mənəvi-fiziki inkişafı dövlətin diqqət mərkəzindədir



Azərbaycanda uşaq və gənclərin fiziki, mənəvi inkişafı dövlətin xüsusi diqqət mərkəzindədir, bu istiqamətdə ardıcıl, məqsədyönlü və səmərəli tədbirlər həyata keçirilir. Məlum olduğu kimi, **"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır",** - deyən Ümummilli lider Heydər Əliyev uşaq və gənclərin layiqli vətəndaş kimi formalaşmasına böyük diqqət yetirirdi. Xatırladaq ki, Ulu öndərin təşəbbüsü ilə Azərbaycan 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulub, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib, "Bakı SOS uşaq kəndi" salınıb və digər zəruri işlər görülüb.

Bu gün ölkəmizdə uşaqların sağlamlığı, inkişafı, təhsili, onların hüquqlarının qorunması üçün genişmiqyaslı işlər görülür. Uşaqların mənəvi-fiziki inkişafında təhsilin rolu danılmazdır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası sayəsində təhsil tariximizdə ilk dəfə olaraq dövlət büdcəsi hesabına ümumtəhsil məktəblərində 5 yaşlı uşaqların məktəbə hazırlığına başlanılıb. 2016-cı ildə həmin yaşda olan uşaqların 55 faizi, 2017-ci ildə 65 faizi, cari ildə isə 75 faizi məktəbəhazırlığa cəlb edilib. Eyni zamanda, ölkəmizdə uşaqların peşə təhsilinə və ali məktəblərə hazırlığına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində təhsil sahəsində, o cümlədən peşə təhsilində müsbət dinamika müşahidə olunub. Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası, "Peşə təhsili haqqında" qanunun qəbulu bu sahənin inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir. Ölkəmizdə son illərdə 83 peşə təhsili müəssisəsi yaradılıb. 2016-2017-ci tədris ilindən başlayaraq peşə təhsili müəssisələrinə sənəd qəbulu "ASAN Peşə" layihəsi çərçivəsində həyata keçirilir. Bundan başqa, istedadlı uşaqlarla sistemli işin təşkili nəticəsində ölkədə fənlər üzrə olimpiada hərəkatı genişlənib. Məsələn, respublika fənn olimpiadalarında bu il 33 mindən çox şagird iştirak edib ki, bu da 2013-cü ilə nisbətən 5 dəfə çoxdur. Beynəlxalq fənn olimpiadalarında isə medalların sayı artıb. 2013-2018-ci illərdə beynəlxalq yarışlara qatılan məktəblilərimiz ölkəyə 3 qızıl, 28 gümüş və 100 bürünc medalla qayıdıblar.

Eyni zamanda, son illər uşaq və gənclərimizin fiziki tərbiyəsinə dövlət tərəfindən göstərilən qayğı da öz müsbət nəticəsini verməkdədir. İdmanın kütləviliyi genişləndirilir, olimpiya hərəkatının inkişafı üçün ayrı-ayrı zonalarda müasir standartlara uyğun idman kompleksləri tikilərək istifadəyə verilir. Ulu öndər Heydər Əliyev fiziki tərbiyəni daim diqqətdə saxlamağı tövsiyə edirdi: **"İdman hər bir insanın sağlamlığıdır. Ona görə də biz idmana çox böyük yol açmışıq. Gənclər gərək fiziki cəhətdən sağlam olsunlar, həm də yüksək biliyə, əxlaqa, tərbiyəyə, yüksək elmə malik olsunlar".**

Bu gün gənc və yeniyetmə idmançılarımızın sorağı beynəlxalq, dünya və Avropa çempionatlarından, olimpiadalarından gəlir.

Uşaq və yeniyetmələrə dövlət qayğısı ilə bərabər, Azərbaycanda düşünülmüş, hərtərəfli gənclər siyasəti həyata keçirilir. 1 fevral 1997-ci il tarixdə fəal gənclərin bir qrupunu qəbul edən Ümummilli lider Heydər Əliyev "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalayıb. 1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan "Dövlət Gənclər Siyasəti haqqında" Fərman bu sahəyə böyük önəm verildiyinin təzahürü kimi qiymətləndirilə bilər. Fərmana müvafiq olaraq ''Gənclər siyasəti haqqında'' Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qeyd edək ki, 1996-cı ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya Oyunlarına qatılıb. Gənclərin idmana cəlb olunması üçün Bakıda və regionlarda Olimpiya İdman Kompleksləri istifadəyə verilib. 2002-2003-cü illərdə "Gənc istedadlar üçün xüsusi təqaüd təyin edilməsi haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" sənədlərin qəbul edilməsinin gənclərin həyatında xüsusi rolu oldu. Eyni zamanda, "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu ilə bağlı" və digər proqramlar hazırlandı. Gənclər və İdman Nazirliyinin nəzdində yaradılan Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi və Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi ümumi işə öz töhfələrini verdi.

Bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu gənclər siyasəti həyata keçirilir. Bu istiqamətdə müvafiq proqramlar qəbul olunub və məqsədyönlü tədbirlər davamlı xarakter daşıyır. 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) imzalanıb. 2005-2009-cu və 2011-2015-ci illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət proqramlarının uğurla həyata keçirilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident Mükafatının təsis edilməsi gənclərin hərtərəfli inkişafını stimullaşdırıb. Hazırda "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı" gənclər siyasətinin prioritetlərini müəyyən edir. Gənclərin hərtərəfli inkişafı üçün şəraitin formalaşdırılması, onların azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlamlığının qorunması və möhkəmləndirilməsi, gənc alim və tədqiqatçıların fəaliyyətinin dəstəklənməsi və gənclərin elmə həvəsləndirilməsi, bilik və bacarıqlarının inkişafı, sahibkarlıq və məşğulluq imkanlarının artırılması, gənclərin və gənclər təşkilatlarının ictimai həyatda təşəbbüskarlığının və iştirakının stimullaşdırılması, xüsusi qayğıya ehtiyacı olan gənclərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəsinin təşviq edilməsi, istedadlı və yaradıcı gənclərlə işin daha effektiv və ünvanlı qurulması, onların asudə vaxtının səmərəli təşkili həmin prioritetlər sırasındadır.

Digər tərəfdən, dövlət başçısının müvafiq Fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilib, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulub. Azərbaycanda Gənclər Günü ilə bağlı hər il silsilə tədbirlər təşkil olunur, təhsil və digər sahələrdə yüksək nailiyyət qazanmış gənclər xüsusi mükafatlarla təltif edilirlər, gənclər tərəfindən təqdim olunmuş layihələr maliyyələşdirilir, istedadlı gənclərin beynəlxalq müsabiqələrdə, konfrans-seminarlarda iştirakı təmin edilir, müxtəlif istiqamətlər üzrə yarışlar təşkil olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi isə mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, son illər Bakıda və regionlarda istifadəyə verilən "Gənclər evləri" gənclərin maraq dairəsini genişləndirərək, asudə vaxtın mənalı və səmərəli təşkili üçün yeni imkanlar yaradıb. Gənclərin məşğulluğu və sahibkarlığın inkişafı üçün biznes inkubatorların, texnoparkların yaradılması onların maddi durumunun, rifah halının daha da yaxşılaşdırılmasına imkan verib. Bütün bunlar gənclərə xüsusi diqqət və qayğının göstəricisi, onların fiziki, mənəvi inkişafının dövlətin diqqət mərkəzində olmasının bariz nümunəsidir. Ümumiyyətlə, bütün bu səmərəli tədbirlərin qanunauyğun nəticəsi kimi, həyatın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib. Ölkədə könüllülük hərəkatı genişlənib, 2012-ci il "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, ilk Avropa Oyunları, Formula-1 Bakı Qran-Prisi və 2017-ci il IV İslam Həmrəyliyi Oyunları nəticəsində isə daha böyük vüsət alıb.

Bütövlükdə, Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncləri ictimai həyatın bütün sahələrində öz aktiv fəaliyyətləri ilə seçilirlər. Azərbaycan gəncliyi özünəinam ruhunda inkişaf edir, dövlətin göstərdiyi yüksək diqqət və qayğının məsuliyyətini dərk edir, ona göstərilən etimadı doğruldur. Nəticə etibarilə, bu gün ölkəmizdə istedadlı, cəmiyyətə və dövlətə yararlı olmaq istəyən gənclərin fiziki-mənəvi inkişafı, yeni nəslin vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə mühüm işlər görülür, səmərəli nəticələr əldə edilir. Uğurlu gənclər siyasəti ölkənin etibarlı gələcəyini təmin edən mühüm vasitə olmaqla yanaşı, cəmiyyətin dinamik təbəqəsi qismində çıxış edən gənclər qarşısında yeni perspektivlər açır.

**Zahid İLHAMOĞLU**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**




# SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə beynəlxalq mükafata layiq görülüb

Dekabrın 13-də Böyük Britaniya Parlamentinin Lordlar Palatasında "Collaborative Award 2018" mükafatının təqdimetmə mərasimi keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, tədbirdə "Collaborative Pathfinder Award" nominasiyasında yeganə beynəlxalq mükafat SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadəyə təqdim olunub.

# "2018: Bakı Ali Neft Məktəbinə tələbə qəbulu üzrə statistik məlumat" jurnalı nəşr olunub




Bu günlərdə "2018: Bakı Ali Neft Məktəbinə tələbə qəbulu üzrə statistik məlumat" jurnalı nəşr olunub. BANM-in nəşri olan jurnal bu ali təhsil ocağının rektoru Elmar Qasımovun "Ön söz"ü ilə başlayır. Ön sözdə bildirilib ki, BANM Azərbaycan Prezidenti İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli Sərəncamı ilə yaradılıb. "Əsas məqsədi Azərbaycanda ingilisdilli peşəkar və savadlı mühəndislər yetişdirmək olan BANM cənab Prezidentin "Neft kapitalını insan kapitalına çevirməliyik" şüarının ən bariz nümunəsidir. **"Yarandığı gündən ali məktəb dinamik inkişafı və göstərdiyi uğurlara görə fərqlənir. Təhsil Nazirliyinin 2017-ci ildə gördüyü işlərə həsr olunmuş hesabatında bildirilib ki, BANM 4 il ərzində ali təhsil müəssisələrinə qəbul imtahanlarında abituriyentlər tərəfindən toplanılan orta ballara görə ölkə üzrə bütün ali məktəblər arasında birinci yerdədir. Təsadüfi deyil ki, 2018-ci il Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarının nəticələrinə görə də, növbəti dəfə BANM ölkə universitetləri arasında birinci yerə çıxdı"**, - deyə rektor "Ön söz"də vurğulayıb.

Jurnalda qeyd olunur ki, keçən il olduğu kimi, bu il də I ixtisas qrupu üzrə ən maksimal keçid və orta bal BANM-ə məxus olub. Bu il I qrup üzrə 700 bal toplamış 13 nəfər abituriyentin hamısı BANM-i seçib. Bu, ölkədə rekord göstəricidir. 2018/2019-cu tədris ilində BANM-in 26 tələbəsi Prezident təqaüdünə layiq görülüb və bu göstərici BANM-i ölkə ali məktəbləri arasında lider edib.

Jurnalda, həmçinin 2018-ci ildə BANM-ə tələbə qəbulu üzrə ümumi statistik göstəricilər, 700 bal toplayaraq BANM-ə qəbul olunmuş tələbələr, Prezident təqaüdünə layiq görülmüş tələbələr, 2012-2018-ci illərdə ixtisas üzrə orta bal dinamikası və s. haqda geniş məlumat verilir.

# <u>RF XİN</u>: Dağlıq Qarabağ münaqişəsinin tərəfləri ATƏT-in Minsk qrupunun köməyi ilə konkret tədbirlər hazırlamalıdırlar

Dağlıq Qarabağ münaqişəsinin tərəfləri ATƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Milanda keçirilən iclası çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin, Azərbaycanın və Ermənistanın nümayəndə heyətləri başçılarının görüşündən sonra ATƏT-in Minsk qrupunun köməyi ilə konkret tədbirlər hazırlamalıdırlar.

AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirdiyi brifinqdə söyləyib.

Mariya Zaxarova qeyd edib ki, konkret tədbirlərin bütöv bir kompleksindən söhbət gedir. O deyib: **"Bu tədbirləri hazırlamaq lazım gələcək. Münaqişə tərəfləri ATƏT-in Minsk qrupunun köməyi ilə bu məsələ ilə məşğul olmalıdırlar".**

RF XİN-in rəsmi nümayəndəsi daha sonra bildirib ki, Milan görüşündən sonra intensiv dialoq aparılır. Rusiya tərəfi ATƏT-in Minsk qrupunun həmsədri kimi, "başlıca məqsədə nail olmağa yönəlmiş müsbət dinamikaya" kömək edəcək.

**"Başlıca məqsədi isə bilirsiniz, biz bu barədə dəfələrlə danışmışıq"**, - deyən M.Zaxarova vurğulayıb ki, nazir Sergey Lavrovun Bakıya səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi də müzakirə olunacaq.




O deyib: **"Rusiyalı nazirin regiona səfərləri zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi həmişə mərkəzi mövzulardan biridir. Nazir həm Bakıya, həm də Yerevana gedir. Bu da təbiidir, çünki bu, hər iki ölkə üçün mühüm məsələdir, Rusiya isə müvafiq prosesin həmsədridir".**

# AQTA-nın mütəxəssisləri Gəncədə sahibkarlarla görüşüb



Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi bölgələrdə sahibkarların maarifləndirilməsi mövzusunda tədbirləri davam etdirir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, növbəti tədbir dekabrın 13-də Gəncədə və ətraf bölgələrdə fəaliyyət göstərən sahibkarlar üçün keçirilib.

Tədbirdə sahibkarlara Agentliyin fəaliyyət istiqamətləri, o cümlədən qida sahəsində çalışan subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması qaydaları haqqında məlumat verilib.

Bundan əlavə, sahibkarlara qida təhlükəsizliyi qeydiyyatı ilə bağlı müraciətlərin qəbulu üçün səyyar xidmət göstərilib. 140 sahibkarın iştirak etdiyi tədbirdə qida təhlükəsizliyi üzrə qeydiyyata alınmış 27 sahibkarlıq subyektinə dövlət reyestrindən çıxarış verilib.

Tədbirdə bildirilib ki, qeydiyyatdan keçən sahibkarlıq subyektləri Qida Təhlükəsizliyi Agentliyi tərəfindən daim nəzarətdə saxlanılacaq və onlarla sıx əməkdaşlıq ediləcək.

Görüşdə qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin və qida məhsulları istehlakçılarının maarifləndirilməsi işinin bundan sonra da davam etdiriləcəyi qeyd olunub.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb və istehsalçıların qarşılaşdıqları problemlərin həlli istiqamətində fikir mübadiləsi aparılıb.

# Ermənistan terroru dövlət səviyyəsində dəstəkləyən və həyata keçirən ölkədir

## *ABŞ səfirliyi Ermənistanda mövcud olan terror təhlükəsi ilə əlaqədar öz vətəndaşlarını bu ölkəyə səfər etməkdən çəkinməyə çağırıb*



Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatlarının Ermənistandakı səfirliyi bu günlərdə bəyanat yayaraq Ermənistanda olan vətəndaşlarını diqqətli olmaları barədə xəbərdar edib və öz vətəndaşlarını Ermənistana səfər etməkdən çəkinməyə çağırıb. ABŞ diplomatik missiyasının saytında yerləşdirilən rəsmi xəbərdarlıqda transmilli terror təşkilatlarının və Avropadakı ekstremist ideologiyaya malik insanların Ermənistanda terror törədəcəyindən narahatlıq qeyd olunur.

Səfirliyin müraciətində aydın şəkildə bildirilir ki, Ermənistanda transmilli terror təşkilatlarının fəaliyyəti istisna edilmir.

Əslində bu bəyanatda təəccüblü heç nə yoxdur. Ermənistanda bu günə qədər hakimiyyətdə olan qüvvələrin əksəriyyəti keçmişdə terror təşkilatları ilə əlaqəli şəxslərdir. İndi həbsdə olan Robert Koçaryanın yaratdığı silahlı terror təşkilatları 1989-cu ildən başlayaraq Dağlıq Qarabağda çoxsaylı terror aktları törədib. R.Koçaryan və əlaltılarının sonrakı fəaliyyətləri də terrorla və terror təşkilatları ilə əlaqəli olub. Onun Ermənistanda hakimiyyətə gəlməsi və hakimiyyətini möhkəmləndirməsi də - tarixdə nadir terror aktlarından olan 27 oktyabr 1999-cu ildə Ermənistan parlamentindəki güllləbaran da hələ yaddan çıxmayıb. Parlament terrorunun əsas iştirakçısı olan Nairi Hunanyanın məhz R.Koçaryanla danışdıqdan sonra girovları azad etməsi və həmin danışıqların məzmununun indiyə qədər gizli qalması da həmin mübhəm əlaqələrlə bağlıdır.

Ermənilərin tarixən terrorizmlə əlaqələrinə gəlincə, yenə tarixdə çox az-az xalqlar var ki, ilk siyasi partiyaları terrorçuluğu ideologiya kimi mənimsəyib, əsas mübarizə metodu kimi terror yolunu seçib. Söhbət indi də Ermənistanda əsas siyasi ideologiyaya təsir göstərən "Armenakan", "Hnçak" və "Daşnaksutyun" partiyalarından gedir. 1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksutyun" ötən əsrin əvvəllərində Türkiyə və Azərbaycanın ərazilərində pozuculuq və qanlı terror fəaliyyəti ilə məşğul olan təşkilatdır. Həmin dövrdə partiya adı altında yaranıb, sonradan vətəndaşları yaşadığı dövlətlərə xəyanətə sürükləyən təkcə "Daşnaksutyun" deyildi. 1887-ci ildə Cenevrədə yaradılan "Hnçak" partiyası və digər terror təşkilatları da həmin rolu oynayıblar. Daşnak dəstələrinin tərkibində Azərbaycan ərazilərində törətdiyi cinayətlərdən sonra Avropaya gedən Qaregin Njde kimi terrorçular faşist Almaniyası ordusunun tərkibində yəhudi və digər millətdən olan minlərlə insanın qətlində iştirak ediblər. Q.Njdenin ideologiyasına sahib çıxan, Q.Njdenin "Tsexakron" təliminə qulluq edən və ona abidə ucaldan isə digər terrorçu eks-prezident Serj Sarkisyan və onun partiyası olub.

Ötən əsrin 70-ci illərindən sonra ortaya çıxan erməni terror təşkilatlarından ASALA-nın da məqsədi Şərqi Türkiyə, İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində uydurma "Böyük Ermənistan" dövləti qurmaqdır. Həmin terror təşkilatının köynəyindən çıxan "Geqaron" (2001-ci il), "Erməni azadlıq hərəkatı" (1991-ci il), "Erməni azadlıq cəbhəsi" (1979-cu il), "Erməni birliyi" (1988-ci il) indi də fəaliyyət göstərir və Dağlıq Qarabağdakı işğalçılıq əməliyyatlarında iştirak edib. Türkiyə və Azərbaycan ərazilərində terror aktlarını qarşısına məqsəd qoyan "Apostol" təşkilatı isə 2001-ci ildə yaradılıb.

Ermənistanda mövcud olan 20 illik terrorçu-işğalçı rejimin dövründə Ermənistan və işğal edilmiş Azərbaycan əraziləri məhz yuxarıda adıçəkilən transmilli terror təşkilatlarının təlim düşərgələrinə çevrilib. Həmin təlim düşərgələrinin indi də mövcud olduğuna şübhə yoxdur. Ermənistanda Dağlıq Qarabağın işğalında iştirak etdikləri üçün xüsusi immunitet qazanan müxtəlif terror təşkilatları heç bir maneəsiz fəaliyyət göstəriblər. Onlardan biri olan "Sasuna Tsrer" terror təşkilatı bu özbaşınalıqdan istifadə edərək 2016-cı ilin yayında İrəvanda polis idarəsini ələ keçirib, polisləri və digər vətəndaşları girov götürmüşdü. İki nəfərin öldürüldüyü həmin hadisədən sonra həbs olunan "Sasuna Tsrer" terror təşkilatının üzvlərinin bir hissəsi N.Paşinyan hakimiyyətə gəldikdən sonra azadlığa buraxılıb. Bundan sonra erməni terrorçuluğunun ənənəsinə uyğun olaraq "Sasuna Tsrer" terror təşkilatının həbsdən çıxan üzvləri siyasi partiyaya çevrilərək seçkilərdə iştirak edib. Qeyd edək ki, seçki ərəfəsində elan olunmuş amnistiya ilə azadlığa çıxan 660 nəfər arasında sözügedən terror təşkilatının üzvləri ilə yanaşı, "siyasi məhbus" adı altında azadlığa çıxan terrorçular da var.

Bu faktlar və "Sasuna Tsrer" kimi terror təşkilatlarının Türkiyə, Azərbaycan və hətta Rusiyaya qarşı müharibə aparmaq çağırışlarını özündə ehtiva edən radikal mövqe nümayiş etdirməsi də ABŞ səfirliyinin "ekstremist ideologiya daşıyıcısı olan insanlar"ın mövcudluğunu xatırlatmasına kifayət qədər əsas verir.

Digər maraqlı məqam odur ki, ABŞ səfirliyinin verdiyi bəyanat N.Paşinyanın uzun müddətdir Ermənistanın terrorçuluqdan uzaq olduğu barədə rəy yaratmaq, turistlərin cəlb olunmasından əldə olunan gəlirlə büdcəsini doldurmaq üçün turizmi inkişaf etdirmək planlarını puça çıxarır.

Göründüyü kimi, öz vətəndaşlarını Ermənistana səfər etməkdən çəkinməyə çağıran ABŞ yeni erməni hakimiyyətini onların təhlükəsizliyini təmin etməyə qabil hesab etmir. Bu bəyanatın arxasında, çox güman ki, Ermənistandakı mövcud daxili vəziyyətin öyrənilib təhlil edilməsindən əldə edilən obyektiv nəticə dayanır. Bu çağırışdakı digər məqam odur ki, rəsmi Vaşinqton Ermənistandakı yeni hakimiyyətin ölkədəki kriminal və ictimai-siyasi duruma tam nəzarət etməsinə inanmır. Ekspertlər və müşahidəçilər məhz bu səbəbdən həmin bəyanatı ABŞ dövlətinin Ermənistanda yeni hakimiyyətə inamsızlığı kimi qiymətləndirirlər.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# İvanov vilayəti Azərbaycandan pambıq idxal etmək istəyir



Rusiya Federasiyasının İvanov vilayəti Azərbaycandan pambıq idxal etmək istəyir.

AZƏRTAC İvanov vilayəti hökumətinin saytına istinadla xəbər verir ki, bunu region hökuməti sədrinin müavini Lyudmila Dmitriyeva "İvanov vilayətində ixracatçı həftəsi" çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə biznes-görüşdə söyləyib.

Məlumatda deyilir ki, Azərbaycan nümayəndə heyətinin səfəri Azərbaycan ilə İvanov vilayəti arasında iqtisadi və mədəni əlaqələri möhkəmləndirmək, əlaqədar şirkətlərlə məhsul təchizatı barədə danışıqlar aparmaq, turizmi inkişaf etdirmək məqsədi daşıyır.

L.Dmitriyeva bildirib ki, qarşılıqlı faydalı əməkdaşlıq potensialı çox yüksəkdir. O deyib: "İvanov müəssisələri ilk növbədə parça, tibbi tekstil, kimyəvi məhsullar, avtokran və ekskavatorlar ixracatının, habelə pambıq idxalatının inkişafına maraq göstərirlər. Region hökuməti əməkdaşlığa həmişə açıqdır və əmtəə istehsalçıları arasında birbaşa əlaqələrin yoluna qoyulmasına və möhkəmləndirilməsinə dəstək göstərməyə həmişə hazırdır. Lyudmila Dmitriyeva vurğulayıb ki, Azərbaycan İvanov vilayətinin mühüm ticarət tərəfdaşıdır, bu ilin səkkiz ayında əmtəə dövriyyəsi təqribən 4 milyon ABŞ dolları təşkil edib.

Azərbaycan nümayəndə heyətinin tərkibində tikinti, ticarət, turizm, kənd təsərrüfatı, habelə xalça istehsalı sahəsində iri şirkətlərin rəhbərləri təmsil olunublar. İvanov tərəfindən biznes-görüşdə "Ayvenqo" tikiş fabriki, "Russki Dom" toxuculuq şirkəti, "Avtokran", "Polyot", Verxnovoljski SMS" və digər şirkətlərin nümayəndələri iştirak ediblər.

Tədbirin sonunda hər iki tərəfin sahibkarları B2B formatında danışıqlar aparıblar. İqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq etmək niyyəti ifadə olunub.

# Ermənistan yeni siyasi böhranla üz-üzə

## *Polis özbaşınalığı, söz azadlığının boğulması, işsizlik və yoxsulluq işğalçı ölkədə yeni kataklizmlərin meydana gəlməsini şərtləndirir*

Ermənistanda növbədənkənar parlament seçkilərindən sonra daxili vəziyyət qeyri-müəyyən olaraq qalır. 7 aydan çoxdur hakimiyyətdə olanların bundan sonra da sosial-iqtisadi sahədə müsbət yöndə dəyişiklik edəcəyinə inam yoxdur. Ermənistanda ciddi qanun pozuntuları və saxtakarlıqla müşayiət olunan parlament seçkilərindən sonra cəmiyyətdə apatiya vəziyyəti hökm sürür.

Hərbi xunta rejiminin banisi Robert Koçaryanın həbsinə görə keçirilən etiraz aksiyalarını nəzərə almasaq, hələlik ciddi qarşıdurma hiss olunmur. R.Koçaryan və Serj Sarkisyanın dövründə vəzifədə olanlara qarşı həbslər isə davam edir. Ermənistan Xüsusi İstintaq Xidmətinin vəsatəti əsasında baş nazirin keçmiş müavini Armen Gevorkyanın həbsinə hazırlıq gedir. Sarkisyan rejiminin digər üzvü, seçkidən əvvəl həbsinə cəhd edilən, lakin deputat toxunulmazlığı ləğv edilmədiyi üçün azadlıqda qalan keçmiş deputat Aram Harutyunyanı isə yaxalamaq mümkün olmayıb. "Hraparak" qəzeti yazır ki, 14 milyon dollar rüşvət almaqda ittiham olunan sabiq ekologiya naziri ölkədən qaçıb.

Birbaşa Nikol Paşinyana tabe olan Polis Xidmətinin fəaliyyəti isə cəmiyyətdə narazılıq yaradır. Seçkidən əvvəl bəzi KİV redaksiyalarına basqın təşkil edən polislərin özbaşınalıqları bu qəbildəndir. Polisin kütləvi informasiya vasitələrinə qarşı fəaliyyətinə toxunan hüquq müdafiəçisi, "Hüquqi zorakılıq əleyhinə" qeyri-hökumət təşkilatının rəhbəri Larisa Allahverdiyan bəyan edib ki, son vaxtlar bir neçə KİV orqanına qarşı polisin anlaşılmaz və əsassız hərəkətləri ciddi təşviş doğurur: **"Onların əsaslandırması daha da pis səslənir. Deyilənə görə, bu dövlət orqanının rəhbərliyi söz, fikir azadlığı və məsuliyyət haqqında elementar təsəvvürə malik deyil".**

Hüquq müdafiəçiləri və müşahidəçilər iddia edirlər ki, əslində KİV-lərə hücumun başında media azadlığını özünə təhlükə hesab edən və onu boğmağa çalışan N.Paşinyan dayanır.

Ermənistandakı həbsxanalarda isə hazırda tamamilə özbaşınalıq hökm sürür. "Jamanak" qəzeti yazır ki, Ermənistanın penitensiar müəssisələrində qayda-qanundan uzaq və bərbad vəziyyət mövcuddur. Qəzetin yazdığına görə, həbsxanaların ətrafında yeni müxtəlif qruplar yaradılıb ki, onlar hazırda məhbusları spirtli içki, narkotik maddə və ərzaqla təmin etməklə iri məbləğlərdə vəsait əldə edirlər: **"Penitensiar xidmət aparatı, öz növbəsində, məhkumlarla əməkdaşlıq edərək pul qazanır. Bəzi məhkumlar kameranın qapısının açıq saxlanması üçün pul ödəyirlər".**

Ermənistan ordusunda da acınacaqlı vəziyyət mövcuddur. Orduda qidalanmanın və məişət şəraitinin bərbad vəziyyətdə olması barədə hələ neçə ay bundan qabaq N.Paşinyanın özünə birbaşa məlumat verilsə də, bu sahədə heç bir irəliləyiş olmayıb. Vəziyyət o həddə olub ki, hansısa deputatlığa namizəd səsvermədən qabaq əsgərləri buterbrodla ələ almağa çalışıb. Ermənistan ordusunda qeyri-hərbi vəziyyətdə ölümlərin sayı da artıb. Demək olar ki, hər gün əsgərlərin intihar etməsi və ya xidmət yoldaşları tərəfindən öldürülməsi barədə xəbərlər gəlir. Son olaraq dekabrın 11-də erməni ordusunun hərbi hissələrindən birinin əsgəri 26 yaşlı Vardan Şahnəzəryan intihar etməyə cəhd edib.

Ermənistandakı mövcud ictimai-siyasi, sosial-iqtisadi vəziyyəti təhlil edən Rusiya EA-nın Dünya İqtisadiyyatı və Beynəlxalq Əlaqələr İnstitutunun baş elmi işçisi, Qafqazşünaslar Elmi Cəmiyyətinin prezidenti Aleksandr Krılov bildirib ki, N.Paşinyanın yeni hökuməti ciddi sosial və iqtisadi islahatlar aparmasa, "erməni dövlətçiliyi"nin mövcudluğu şübhə altına düşəcək. "Sputnik Ermənistan"ın xəbərinə görə, ekspert Ermənistanın inkişafının qonşuları ilə normal münasibət qurmasından asılı olduğunu bildirib: **"Qonşuları ilə hərbi qarşıdurma vəziyyətində olan ölkədə iqtisadi islahatlar aparılması da vəziyyətin kökündən yaxşılaşmasına gətirib çıxarmayacaq və Ermənistan yeni bir siyasi böhranla üzləşəcək".**

Beləliklə, ekspertlərin də vurğuladığı kimi, Ermənistanda polis və oliqarxların özbaşınalığının davam etməsi, mətbuat azadlığının boğulmasına cəhdlər, cəzaçəkmə müəssisələrindəki vəziyyətin anormallığı, işsizlik və yoxsulluqdan əziyyət çəkən əhalinin indiyə qədər quru vəddən başqa heç nə əldə etməməsi cəmiyyətdə yeni dalğalanmaların və siyasi böhranların yaranmasına gətirib çıxaracaq.

**Qaşqay RAMAZANOV**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

# Azərbaycanın regionlarında əkin sahələrinin su təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır

*Son 15 ildə ölkə üzrə 390 min hektar sahədə torpaqların su təminatı və 261 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 146 min hektar yeni suvarılan torpaqlar əkin dövriyyəsinə cəlb edilib*









Müstəqil Azərbaycanda ölkənin güclü iqtisadi potensialı nəzərə alınmaqla həyata keçirilən məqsədyönlü siyasətin mühüm bir istiqamətini müasir infrastruktur quruculuğu təşkil edir. Son 15 ildə regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları çərçivəsində bütün respublika üzrə yeni generasiya güclərinin yaradılması, şəhər və kəndlərin qazlaşdırılması, içməli su təminatının yaxşılaşdırılması, magistral və kənd yollarının abadlaşdırılması ilə bağlı çoxlu sayda layihələr reallaşdırılıb. Görülən işlərin nəticəsi olaraq Azərbaycan infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri sırasına yüksəlib. Dövlət əsaslı vəsait qoyuluşu hesabına yaradılan müasir infrastruktur regionlarda iqtisadi aktivliyin artmasına, eyni zamanda insanların həyat səviyyəsinin yaxşılaşmasına müsbət təsir göstərib.

### ÖLKƏDƏ MELİORASİYA SAHƏSİNƏ ƏSASLI KAPİTAL QOYULUŞU GETDİKCƏ ARTIR

Azərbaycanda intensiv şəkildə həyata keçirilən müasir infrastruktur quruculuğundan söhbət açarkən regionlarda hazırda istifadə olunan torpaqların su təminatının yaxşılaşdırılması və yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi üçün uğurla reallaşdırılan layihələrin də önəmini qeyd etmək lazımdır. Son 15 ildə ölkə üzrə 390 min hektar sahədə torpaqların su təminatı və 261 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 146 min hektar yeni suvarılan torpaqlar əkin dövriyyəsinə cəlb edilib.

Bunu KİV-ə açıqlamasında “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib. Ölkə iqtisadiyyatının bütün sahələri kimi, meliorasiya və su təsərrüfatı sahəsinin də son 15 ildə böyük iqtisadi inkişaf yolu keçdiyini vurğulayan ASC rəsmisi deyib: **“Bu sahəyə ayrılmış əsaslı kapital qoyuluşu dəfələrlə artıb və maddi-texniki baza xeyli yaxşılaşdırılıb. Ölkənin su təhlükəsizliyində strateji əhəmiyyət kəsb edən Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarları istifadəyə verilib, 4,1 min kilometr suvarma kanalları və 2,7 min kilometr kollektor-drenaj şəbəkələri tikilib və təmir-bərpa edilib, 2234 subartezian quyusu qazılıb. Həmçinin sel və daşqınlara qarşı Kür, Araz və dağ çaylarında 1000 kilometrdən artıq sahilbərkitmə və bəndlərin möhkəmləndirilməsi işləri həyata keçirilib”.**

Ölkədə reallaşdırılan meliorativ tədbirlərin miqyası ilbəil daha da genişlənir. Ötən il “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti tərəfindən ölkə ərazisində 103 min hektar sahəyə suyun çatdırılması və su təminatının yaxşılaşdırılması işləri həyata keçirilib ki, bu da kənd təsərrüfatının intensiv inkişafına və yüksək məhsul alınmasına geniş imkan yaradıb. ASC rəsmisinin sözlərinə görə, cari ildə daha 100 min hektar torpaq sahəsinin meliorativ vəziyyətinin və su təminatının yaxşılaşdırılması üçün suvarma kanallarının və nasos stansiyalarının tikintisi, yenidən qurulması, bərpası və digər meliorativ tədbirlər görülür.

**“Bu il Şabran rayonunda 12 min hektar torpaq sahəsində meliorativ işlər, Sabirabad rayonunda “H” kanalının, Neftçala rayonunda Neftçala magistral kanalının tikintisi, Hacıqabul, Ağcabədi və digər rayonlarda nəzərdə tutulan meliorativ tədbirlər başa çatdırılacaq”,** - deyə Dilqəm Şərifov əlavə edib.

### BÖLGƏLƏRDƏ 300 SUBARTEZİAN QUYUSUNUN LAYİHƏLƏNDİRİLMƏSİ VƏ QAZILMASI İŞLƏRİ YEKUNLAŞIB

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə əlaqədar olaraq Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən 300 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması işləri tam başa çatdırılıb. ASC-nin mətbuat katibi bildirib ki, Prezident İlham Əliyevin 2018-ci il 12 mart tarixli “Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncamı ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-yə əhalisi 597 min nəfərə yaxın olan 38 şəhər və rayonun 248 yaşayış məntəqəsində 8740 hektar əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 2018-ci ildə 300 ədəd subartezian quyusunun layihələndirilməsinin və qazılmasının təmin olunması tapşırılmışdı. Sərəncamda nəzərdə tutulan bütün tədbirlərin hamısı uğurla yekunlaşıb.

Dilqəm Şərifovun sözlərinə görə, subartezian quyularının çox hissəsi cəbhə xəttinə yaxın ərazilərdə qazılıb. Məqsəd döyüş bölgəsinə yaxın ərazilərin su təminatının daha da yaxşılaşdırılmasıdır.

### AĞCABƏDİDƏ QAZILAN YENİ SUBARTEZİAN QUYULARI VASİTƏSİLƏ 570 HEKTAR ƏKİN SAHƏSİNİN SUVARILMASI TƏMİN EDİLƏCƏK

Ağcabədi rayonunda da əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür, hər il yeni subartezian quyuları qazılır. Cari il oktyabrın 31-də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Ağcabədi rayonunda qazılmış 19 ədəd subartezian quyusu istifadəyə verilib. Bu münasibətlə rayonun Şərəfxanlı kəndində keçirilən tədbirdə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin və rayon icra hakimiyyətinin nümayəndələri, aidiyyəti idarə və təşkilatların rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavini Rafiq Aslanov və rayon rəhbərliyi tədbirdə çıxış edərək əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması istiqamətində görülən işlərdən və aqrar sahədə əldə olunan uğurlardan danışıblar. Bildirilib ki, Azərbaycanda torpaqlardan istifadənin səmərəliliyinin artırılması və əkinəyararlı torpaqların genişləndirilməsi məqsədilə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, o cümlədən əhalinin içməli suya tələbatının ödənilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Təkcə Ağcabədi rayonunda 2005-2018-ci illərdə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 200 ədəd subartezian quyusu qazılıb istifadəyə verilib. Yeni layihə çərçivəsində rayonun Hindarx, Poladlı, Taynaq, Sarıcalı, Şərəfxanlı, Bala Kəhrizli, Muğanlı, Hüsülü, Göyük, Minaxorlu, Yuxarı Qiyaməddinli, Şahsevən qəsəbə və kəndlərində, həmçinin Lənbəran qışlağı ərazisində Atçılıq Təsərrüfatının sahəsində ümumilikdə 19 ədəd subartezian quyusu qazılaraq istismara tam hazır vəziyyətə gətirilib. Yeni istifadəyə verilən subartezian quyuları vasitəsilə 570 hektar əkin sahəsi suvarılacaq.

### AĞDAM RAYONUNUN İŞĞAL ALTINDA OLMAYAN YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ 35 SUBARTEZİAN QUYUSU QAZILACAQ

Ağdam rayonunun işğal altında olmayan 20 yaşayış məntəqəsində Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən 35 ədəd subartezian quyusunun qazılması ilə əlaqədar podratçı təşkilatlarla müqavilələr imzalanıb. Dilqəm Şərifovun bildirdiyinə görə, qazılacaq subartezian quyularının yerləri dəqiqləşdirilərək layihə-smeta sənədləri də hazırlanıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Ağdam rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” 2018-ci il 5 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə Ağdam rayonunun əhalisi 26 min 265 nəfər olan 20 yaşayış məntəqəsində 1050 hektar əkin sahəsinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 35 subartezian quyusunun layihələndirilməsinin və qazılmasının təmin olunması tapşırılıb. Hazırda Sərəncamda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə zəruri tədbirlər görülür.

### REGİONLARDA PİVOT SUVARMA SİSTEMİNİN TƏTBİQİNƏ “YAŞIL İŞIQ” YANDIRILIR

Respublikanın bölgələrində müasir suvarma metodlarının, o cümlədən də pivot suvarma sisteminin tətbiqinə “yaşıl işıq” yandırılır. Pivot suvarma sahəsində dünyanın ən müasir və praqmatik üsullarından birini təklif edən “Lindsay”ın Azərbaycandakı rəsmi tərəfdaşı olan “4S” şirkəti ölkənin aqrar sektoruna sözügedən sahədə yeni həll variantları təqdim etməkdə qərarlıdır. Bəs yerli kənd təsərrüfatı istehsalçıları “Lindsay” məhsullarının tətbiqi ilə nə qazanır?

Əvvəlcə bildirək ki, “Lindsay” şirkətinin fəaliyyət fəlsəfəsinin qayəsini məhsuldarlığın maksimal artırılması təşkil edir. Təklif olunan müasir texnologiyalar sayəsində hər bir fermer üçün individual və kompleks yanaşma təqdim olunur. İkincisi, “Lindsay” bütün növ suvarma sistemlərinə malikdir. Buraya fırlanan tamancalı şlanqlar, dairəvi, frontal pivot sistemləri daxildir. Nəticə etibari ilə onlar istənilən torpaq sahəsinə uyğunlaşdırılmaqla ən keyfiyyətli məhsul əldə edilməsinə səbəb olur. Bundan əlavə, “Lindsay”ın pivot suvarma sistemlərini tətbiq etməklə, məhsul istehsalçıları 35-40 faiz daha az su istifadə edəcəklər və s. Bu yerdə qeyd edək ki, dünyada kənd təsərrüfatında istifadə olunan torpaqların yalnız 18 faizi suvarılır, lakin bu torpaqlar planetdə ümumi istehsal olunan məhsulun 50 faizini verir. Ekspertlərin hesablamalarına görə, sudan düzgün istifadə etməklə Azərbaycanda becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını əkin sahələrini çoxaltmadan, yəni ekstensiv deyil, intensiv üsulla inkişaf etdirərək 2-3 dəfəyədək artırmaq olar.

“Lindsay” pivot sistemləri dünyanın ən qabaqcıl suvarma sistemləridir. İndiyədək Azərbaycanın ən iri fermer təsərrüfatlarında, yeni yaradılan aqroparklarda, ümumilikdə, 500-ə qədər “Lindsay” pivot sistemi uğurla quraşdırılaraq istifadəyə verilib. Bu sistemlə torpaqların şoranlaşmasının qarşısı alınır, bitkilər vegetasiya dövründə optimal nəmliklə təmin edilir, nəticədə məhsuldarlıq bir neçə dəfə artır.

**Mübariz ABDULLAYEV**

# “DaimOnline” kampaniyası daha iki universitetdə



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi olan Bakcell şirkəti özünün yeni “DaimOnline” tarif paketlərini gənc istifadəçilərə tanıtmaq məqsədilə daha iki universitetin tələbələri üçün maraqlı aksiya təşkil edib.

Belə ki, aksiya çərçivəsində Bakcell şirkəti Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Texniki Universitetində xüsusi “DaimOnline” stendi quraraq universitet tələbələrinə “Green Box”, “İnsta Print”, “Facebook Frame” və digər maraqlı oyunlar və əyləncələrdə iştirak edib müxtəlif hədiyyələrə sahib olmaq imkanı verib. Stenddə təşkil edilmiş maraqlı və şən tədbirlərində iştirak etmiş yüzlərlə tələbə, həmçinin yeni “DaimOnline” tarif paketləri barədə ətraflı məlumat əldə ediblər.

Qeyd edək ki, ötən ay bu aksiya Azərbaycan Tibb Universitetinin tələbələri üçün də keçirilmişdi.

Gənclərin daha çox sosial şəbəkələr və mesajlaşma tətbiqetmələrindən istifadə etməyə üstünlük verdiyini nəzərə alaraq, Bakcell şirkəti bir müddət əvvəl yeni “DaimOnline” paketlərini təqdim edib. Üç variantda və müvafiq olaraq 6, 10 və 20 manat aylıq abunə haqqı ilə təklif olunan yeni tarif paketləri sayəsində istifadəçilər limitsiz “WhatsApp”, “Facebook” və “Instagram” istifadəsi ilə yanaşı, qiqabaytlarla internet və bol-bol şəbəkədaxili dəqiqələrdən yararlana bilirlər. Limitsiz “WhatsApp”, “Facebook” və “Instagram” imkanı təqdim edən yeni “DaimOnline” tarif paketlərini istifadəyə verməklə, Bakcell gənc abunəçiləri limitsiz ünsiyyət üçün tam sərbəstliklə təmin edib. Bu yeni tariflər sayəsində gənclər daim onlayn olmaq imkanı əldə ediblər.

Bakcell şirkətinin yeni “DaimOnline” tarifləri və digər sərfəli və innovativ təkliflər barədə daha ətraflı məlumat almaq üçün www.bakcell.com səhifəsinə və yaxud “Bakcell”in rəsmi “Instagram” və “Facebook” səhifələrinə daxil olun.

# Bakcell müsabiqədə qalib gələn məktəbliləri mükafatlandırıb



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti və Azərbaycanın ilk FTTH provayderi olan ENGİNET şirkəti “İnternetdə uşaqların təhlükəsizliyi” layihəsi çərçivəsində keçirilmiş “Bakı şəhər məktəbləri arasında videoçarx müsabiqəsi”nin qaliblərini mükafatlandırıb.

“Bakı şəhər məktəbləri arasında video-çarx müsabiqəsi” Təhsil Nazirliyinin dəstəyi ilə icra olunan “İnternetdə uşaqların təhlükəsizliyi” layihəsi çərçivəsində həyata keçirilib. Bakcell və ENGİNET şirkətlərinin birgə dəstək göstərdiyi layihə çərçivəsində Bakıdakı 165, 280, 291, 211, 225, 177 və 271 nömrəli tam orta məktəblərin şagird və pedaqoji heyəti ilə görüşlər keçirilib. Görüşlərdə internetdən düzgün və təhlükəsiz istifadə qaydaları, mövcud təhlükələr və təhlükəli məzmunlardan qorunmaq üçün nəzərdə tutulmuş alətlər barədə geniş məlumat verilib.

291 nömrəli Ekologiya liseyinin şagirdləri Mustafayev Tuncay və Niftəli Ayşən, 211 nömrəli məktəbdən Qəribova Fidan, Əlisəttarova Aylin, Ramazanova Mədinə, Xəlilov Vüsal, Mirzəyeva Əsmət və 271 nömrəli məktəbdən Məmmədov Ayxan, Göyüşlü Banu, Əkbərli Hüseyn, Quluzadə Nurlan və Süleymanova Mədinə müsabiqənin qalibləri seçilib. Bakı şəhərinin 211 nömrəli tam orta məktəbində keçirilmiş mərasim zamanı müsabiqədə qalib gəlmiş məktəblilərə Bakcell və ENGİNET şirkətləri tərəfindən xüsusi hədiyyələr təqdim edilib.

Qeyd edək ki, Bakcell bir neçə il il bundan əvvəl istifadəyə verilmiş və artıq 4G şəbəkəsində də fəaliyyət göstərən “Təhlükəsiz İnternet Paketləri” uşaqlar üçün internetdən istifadənin təhlükəsiz olmasını təmin edir. Bu internet paketləri və ENGİNET şirkətinin “İnternet Filtrasiya Xidməti” sayəsində Bakcell abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadəsini təmin edə və onları zərərli və istənilməyən məzmundan qorumaq imkanına malikdirlər.

“Təhlükəsiz İnternet” paketləri haqqında daha ətraflı məlumat https://www.bakcell.com/az/internet-safe-internet səhifəsində əks olunur.

# “Nar”-dan Yeni il ərəfəsində sərfəli rominq təklifləri

“Nar” qış mövsümündə və Yeni il ərəfəsində xaricə səyahətə çıxan abunəçilər üçün yeni sərfəli rominq paketləri təqdim edir. Artıq “Nar” abunəçiləri xarici ölkələrdə olarkən sərfəli qiymətə təqdim olunan 4 yeni rominq paketindən yararlana bilərlər. Bunun üçün səfərə çıxarkən rominq paketlərindən birini sifariş etmək kifayətdir. Təqdim olunan “Roaming 9” paketi abunəçilərə 500 MB internet, “Roaming 15” paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, “Roaming 18” paketi 1 GB internet, “Roaming 28” paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. “Roaming 18” və “Roaming 28” paketlərində “WhatsApp” vasitəsilə yazılı mesajlar pulsuzdur.

Şifariş edilən paketdaxili internet və dəqiqənin balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq kifayətdir. “Roaming 9”, “Roaming 15” paketlərinin istifadə müddəti 5, “Roaming 18” və “Roaming 28” paketlərinin istifadə müddəti isə 15 gündür.

Rominq paketləri haqqında daha ətraflı məlumatı nar.az saytından və ya 777 nömrəsinə “R” göndərməklə əldə etmək olar.




# “Nar MiFi” paketini al, 6 aya qədər pulsuz internet əldə et!




Ölkənin ən gənc və innovativ mobil operatoru “Nar” yüksəksürətli internetə çıxış imkanı verən “Nar MiFi” paketini təqdim edir. “Nar MiFİ” paketinə aylıq 30 GB olmaqla 6 aya qədər yüksəksürətli internet və daşınabilən MiFi cihazı daxildir. “Nar MiFi” paketinin ilkin qiyməti 120 AZN təşkil edir. Paketin daxilindəki pulsuz internet bitdikdən sonra, abunəçilər aylıq 20 AZN ödəməklə, 30 GB internet əldə edəcəklər.

“Nar MiFi” ilə abunəçi olduğu yerdən asılı olmayaraq, hər zaman onlayn olacaq və sərfəli qiymətə yüksək sürətli internetə çıxış əldə edəcək. Eyni zamanda, istifadəçinin interneti dostları və yaxınları ilə asanlıqla paylaşması mümkün olacaq. Portativ cihazı abunəçi rahat quraşdıra bilər və SİM kartı və batareyanı cihaza daxil etməklə, internet aktiv olacaq. “Nar MiFi” cihazının ölçüsünün kiçik və yüngül olması onu asanlıqla istənilən yerə aparmağa imkan verir.

Qeyd edək ki, 3G və 4G şəbəkəsini bütün ölkə ərazisində artırmağa davam edən “Nar” hazırda ölkədə ən geniş şəbəkələrindən birinə malikdir. “Nar MiFi” cihazını abunəçi istənilən “Nar” satış və xidmət mərkəzləri və ya diler mağazalarından əldə edə bilər. “Nar MiFi” haqqında daha ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

## İTMİŞDİR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin IV kurs 407-ci qrup tələbəsi Aytac Firuddin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin I kurs 712-ci qrup tələbəsi Abdullayev Həmid Şahmar oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU